*UOT 37.01.*

***Günay Xəzail qızı Şirəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dillər Universiteti*

# İNGİLİS DİLİNİN QRAMMATİKASININ KOMMUNİKATİV METODLA TƏDRİSİ ZAMANI İSTİFADƏ EDİLƏN LİNQVODİDAKTİK VASİTƏLƏR

***Гюнай Хазаил Ширалиева,***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Университет Языков*

# ЛИНГВОДИДАКТИЧЕСКИЕ СРЕДСТВА ИСПОЛЬЗОВАННЫЕ ВО ВРЕМЯ ПРЕПОДАВАНИЯ ГРАММАТИКИ АНГЛИЙСКОГО ЯЗЫКА С ПОМОЩЬЮ КОММУНИКАТИВНОГО МЕТОДА

***Gunay Khazail Shiraliyeva***
*PhD in pedagogy, associate professor*
*Azerbaijan University of Languages*

# LINGUODIDACTIC MEANS USED IN TECHING ENGLISH GRAMMAR BY THE HELP OF COMMUNICATIVE METHOD

**Xülasə:** Məqalədə ingilis dilinin qrammatikasının kommunikativ metodla tədrisi zamanı müəllimlərin istifadə etdikləri linqvodidaktik vasitələrdən bəhs edilir.

Xarici dillərin tədrisinin müasir metodları çox rəngarəngdir. İngilis tədqiqatçısı və metodoloqu Q. Palmer tərəfindən əsası qoyulmuş xarici dillərin kommunikativ metodlarla tədrisi ingilis dilin tədrisində ən effektli və məşhur metodlardan hesab edilir və bu metod tədrisdə şifahi ünsiyyətin praktik olaraq istifadəsinə istiqamətlənmişdir.

Məlumdur ki, kommunikativ metodun əsas prinsipləri Q. Palmer tərəfindən qoyulmuşdur və o, öz metodunu "xarici dillərin öyrədilməsinin şifahi metodu" adlandırmışdır.

Bu məqalədə biz, ingilis dilinin qrammatikasının kommunikativ metodla tədrisinin əsas prinsipləri, tələbləri, etaplarını göstərməyə çalışmışıq. Bundan başqa, biz dərsliklərin təhlilini aparmağa, rollu oyunların və digər autentik vasitələrin ingilis dilinin qrammatikasının tədrisində istifadə edilməsinə də cəhdlər göstərmişdik.

***Açar sözlər:*** *imitasiya, transformasiya, əvəzetmə cədvəlləri, rol-oyunlar, dialoqlar*

**Резюме:** Данная статья посвящена исследованию лингводидактических средств, используемых при обучении грамматике английского языка коммуникативным методом.

Современные методы преподавания иностранных языков очень разнообразны. Коммуникативный метод обучения иностранным языкам, основанный английским исследователем и методологом Г. Палмером, является одним из самых эффективных и популярных методов обучения английскому языку, который направлен на использование практики устного общения в обучении.

Известно, что основные принципы коммуникативного метода были предложены известным английским методологом-исследователем Палмером Г., который назвал свой метод «устным методом обучения иностранным языкам».

В этой статье мы постарались показать основные принципы, требования, этапы преподавания грамматики английского языка с помощью коммуникативного метода. В дополнение к этому мы предприняли попытку проанализировать учебники, использовать ролевые игры и другие аутентичные средства обучения грамматике английского языка.

***Ключевые слова:*** *имитация, трансформация, подстановочные таблицы, ролевые игры, диалоги;*

**Summary:** This article has been dedicated to the investigation of the linguodidactic means used in teaching grammar of English language with communicative method.





Modern methods of teaching foreign languages are very diverse. Communicative method of teaching foreign languages, founded by an English researcher and methodologist G. Palmer, is one of the most effective and popular methods of teaching English, which is aimed at using oral communication practice in teaching.

It is known that the basic principles of the communicative method were proposed by the famous English methodologist-researcher Palmer G., who called his method "the oral method of teaching foreign languages".

In this article we tried to show the main principles, demands, stages of teaching English grammar by using the communicative method. In addition to this, we made an attempt to analyse the text-books, the use of role-play games and other authentic means of teaching English grammar.

***Key words:*** *imitation, transformation, substitution tables, role-playing games, dialogues;*

"İngilis dilinin tədrisinin kommunikativ metodu əsasən praktik ehtiyaclara yönəlmişdir: qrammatika - zəruri hallarda çox məhdud formada, leksika - praktiki tapşırıqlar üçün lazım gəldikdə, praktika – dialoqlar və həyati situasiyalarda", - Vitlin yazırdı [9, s.1].

Xarici dilin tədrisinə kommunikativ yanaşmanın əsasını dilin kommunikativ nəzəriyyəsi təşkil edir. Hayms (Hymes) xarici dilə yiyələnməni kommunikativ kompetensiya adlandırır. Hayms kommunikativ kompetensiya terminini N. Homskinin dil nəzəriyyəsinə qarşı işlətmişdir. N. Homski belə hesab edirdi ki, dil nəzəriyyəsi tamamilə birtərəfli nitqdə danışan dinləyici ilə ümumi olaraq məşğul olur. N. Homskinin fikrincə, dil nəzəriyyəsinin əsas vəzifəsi, xarici dildə qrammatik cəhətdən düzgün bəyanatların yaradılmasına imkan verən danışanın abstrakt bacarıqlarını xarakterizə etməkdir. Hayms bu cür düşüncəni qeyri-məhsuldar hesab edir, çünki dil nəzəriyyəsi daha ümumi ünsiyyət və mədəniyyət nəzəriyyəsinin bir hissəsi kimi qəbul edilməlidir. Haymsın kommunikativ kompetensiya nəzəriyyəsi, danışanın müəyyən bir danışma prosesində başa düşülməsinə hesablanmışdır [9, s. 1].

Kommunikativ yanaşmanın əsasını təşkil edən kommunikasiyanın linqvistik nəzəriyyəsi M.A.K. Hallidey tərəfindən işlənib hazırlanmış funksional dil nəzəriyyə sidir. M.A.K. Halllideyin fikrincə, "Linqvistika danışma aktları və ya mətnlərin təsviri ilə məşğul olur, halbuki yalnız fəaliyyətdə olan dilin öyrənilməsi vasitəsilə onun bütün funksiyaları və məna çalarları nəzərə alına bilər" [6, s. 12].

Bir neçə illər ərzində bu metod qərbi Avropa və Amerika metodologiyasında aparıcı rol qazandı. Bu metodun təlim məqsədlərinin müəyyənləşdirilməsində vacibdir ki, tərəflərdən ən azı ikisi qarşılıqlı əlaqəyə cəlb olunsun; tərəflərdən birinin ünsiyyətə niyyəti var, ikincisi isə bu və ya digər şəkildə ona reaksiya verir.

Kommunikativ metodla təlimdə əsas yeri oyun situasiyaları, tərəfdaş ilə işləmək, təkcə leksik ehtiyatın artırılmasına deyil, eyni zamanda tələbələrin analitik düşün-məsini yoxlayan və inkişaf etdirən səhvlərin düzəlişini tələb edən tapşırıqlar tutur. Oyun keçirərkən müəllimin mövqeyi və oyunun detallarını hazırlamaq bacarığı çox vacibdir. Y.N. Solovovanın fikrincə, dərs zamanı keçirilən oyun kommunikativ metod üçün çox vacib olan real nitq ünsiyyətini modelləşdirir [5, s. 32].

Biz belə hesab edirik ki, kommunikativ metodika xarici dilin öyrənilməsinə praqmatik yanaşma üsuludur. Kommunikativ yanaşmada təlim prosesi tələbənin üzərində mərkəzləşmişdir. Buna görə də təlim prosesinin təşkilatçısı kimi müəllimdən kommunikativ tapşırıqların yerinə yetirilməsinə şərait yaradan atmosferin yaradılması tələb edilir.

Kommunikativ qrammatikanın tədrisi dörd mərhələdən ibarətdir:

1. Yeni qrammatik materialın izahı kiçik (təxminən üç-beş dəqiqəlik material) mətnin oxunması ilə izah edilə bilər. Əvvəlcə müəllim həmin mətni oxuyur. Tələbələr mətnin əsas ideyasını müəyyənləşdirirlər. mətnin məzmununa müvafiq suallara cavab verirlər; buraxılmış yerləri mətndəki sözlərdən istifadə edərək doldururlar; yeni qrammatik materiala uyğun cümlələr düzəldirlər;

2. İkinci mərhələdə artıq tələbə tanış olduğu qrammatik strukturu oxunulan mətndə tapmağa çalışır. Bu ona yeni məlumatın mənimsənilməsində kömək edir.

3. Qrammatik qaydaların formalaşdırılması: müqayisə, verilmiş variantlardan onların seçilməsi, perefraz və s.

4. Dördüncü mərhələdə oxu, oxunulmuş mətnə qısa annotasiyalar yazmaq, qrammatik qaydaların istifadəsilə cümlələri tamamlamaq; dördüncü mərhələdə tələbələrə belə tapşırıq verilə bilər: iki tələbəyə eyni mətn verilir. Birinci tələbəyə verilmiş mətnin cüt rəqəmli cümlələri, ikinci tələbəyə verilmiş mətnin tək rəqəmli cümləlri buraxılır. Tələbələrdən mətni oxumaq tələb edilir. Beləliklə, tələbələr mətni oxuyarkən həmin cümlələrdəki qrammatik materialı da mənimsəmiş olurlar.

Qrammatik bacarıqların nitq prosesində təkmilləşməsi xarici dilə yiyələnmənin səviyyəsini artırır, bununla da ümumilikdə dil kompetensiyasını inkişaf etdirir və kommunikasiyanın səmərəliliyini artırır.

Situasiyaya əsaslanan xarici dil kommunikasiyası tələbələri kommunikasiyaya motivasiya edir, söhbətin düzgün təşkil edilməsinə inamı artırır.

Xarici dilin kommunikativ metodla öyrənilməsindən bəhs edən çox sayda ədəbiyyat vardır. Kommunikativ metodun tərəfdarları dərs materiallarını tədris kommunkasiyasının və dil istifadəsinin əsas vasitəsi hesab edirlər. Ənənəvi olaraq dərs materiallarının üç növü fərqləndirilir:

1. kommunikativ çalışmalara əsaslanan;
2. mətnə əsaslanan dərs vəsaitləri;
3. realiyalar;

Kommunikativ metodla xarici dilin tədrisinə üstünlük verən dərs vəsaitləri kommunikasiyaya stimul verən çox sayda vizual, informativ mətnlərdən ibarətdir.

Təcrübələr sübut etmişdir ki, qrammatik materialın mənimsənilməsini aşağıdakı mərhələlərlə aparmaq məqsədəuyğundur: nitq nümunəsinin təqdimatı (qrammatik hadisənin təhlil və sintezi vasitəsilə); məşq etmə və həmin nümunənin nitqdə tətbiqi. Bu mərhələlərin hər birinin məqsədinə uyğun tapşırıqlar vardır.

Birinci mərhələdə qrammatik hadisəni anlamaq, onun məzmununu, formasını və istifadəsini aydınlaşdırmaq lazımdır. Məhsuldar öyrənmə üçün yeni tədris materialları ilə tanışlıq, şifahi və ya oxu zamanı tədris-nitq situasiyalarında həyata keçirilir. Aşağıdakı tapşırıqlar bu mərhələyə uyğun gəlir:

1. Vurğulamaq;
2. Yazmaq;
3. Qrammatik təhlil;
4. Sos modeli (toplamaq, təşkil etmək, sistemləşdirmək);

İkinci mərhələdə qrammatik materiallar hazırlanır və qrammatik nitq bacarıqları formalaşır. Şifahi nitqin qrammatik tərəfinin tədrisi aşağıdakı təlimlər vasitə-silə effektiv şəkildə həyata keçirilir:

- imitasiya;
- təkrarlamaq;
- transformasiya;
- əvəzetmə cədvəlləri;
- oyun xarakterli çalışmalar;

Yalnız təlim məşqləri ünsiyyətə qatılma qabiliyyətinə gətirib çıxarmır. Üçüncü mərhələdə, qrammatik nitq bacarıqları və vərdişlərinin yekun formalaşması, yəni onların nitqdə istifadəsi həyata keçir. Bu məqsədlə tələbələrə aşağıdakı çalışmalar təklif olunur:

- kommunikativ tipli çalışmalar;
- təlim və təbii nitq situasiyaları (TNS və TNS);
- kommunikativ oyunlar;

Kommunikativ qrammatikanın tədrisi zamanı aşağıdakı prinsiplərə əməl edilməlidir:

1. situativlik;
2. funksionallıq;
3. şifahi nitq fəaliyyəti;
4. yenilik;
5. fərdilik;

Bu prinsiplərin tətbiqini aşağıdakı kommunikativ çalışmalar, təlim nitq situasiyaları və kommunikativ oyunlar ilə izah edək:

1. Bir neçə replikadan birini seçin, bu replikadan əvvəl yaşanan hər hansı situasiyanı yada salın. Onu qrupa və ya qrup yoldaşınıza təsvir edin. Qrup və ya qrup yoldaşı kontekstə uyğun müvafiq vəziyyətə cavab verməyə çalışır.

Tələbələr bu cür tapşırıqları həvəslə yerinə yetirirlər. Qeyd etmək lazımdır ki, bu cür çalışmalar tələbələrin diqqətini artırır və auditoriyada gözəl mühit, atmosfer yaradır.

2. Suallara cavab vermək bacarığını müəllimlər mövcud cavaba verilən sualın bərpası şəklində olan tapşırıqlar vasitəsilə həyata keçirirlər. Bu tapşırığı tələbələrin bir-birinin anketini doldurması şəklində tərtib etmək olar. Sual cümlələrini məşq edərkən şəkil göstərərək bu hadisənin harada, nə zaman baş verdiyini soruşmaq olar. Ertəsi gün onlar öz şəkillərini gətirərək qrup yoldaşları ilə cütlərlə işləyirlər. Daha sonra şəkildəki





personajı göstərərək ona əvvəl və sonra nə baş verdiyini soruşmaq olar. Tələbə The Past Simple (İndiki qeyri-müəyyən zaman forması) zamanı işlətməklə sorğuya cavab verə bilər.

3. Hər tələbəyə bir şəkil verilir. Tələbə orada təsvir edilən adama ad verir, onun sənəti, yaşı, məşğuliyyətini müvafiq feillərlə ifadə edir. *Tall, beautiful, handsome* kimi sifətləri işlətməklə həmin adam haqqında müvafiq zamanda cümlələr qurur.

4. Kommunikativ qrammatika ünsiyyət situasiyalarından asılı olaraq dil vahidlərinin variativ (dəyişkən) istifadəsini nəzərdə tutur. Belə ki, tələbələrdən lazım olan şəkli təsvir etmək tələb edilərkən həm artiklın, ismin, sifətin işlədilməsi həm də sual, nəqli və əmr cümlələrinin işlənməsi məşq edilir. Şəkli daha yaxşı təsvir edən tələbə qalib olur.

5. Kartlarda yay tətili zamanı yerinə yetirilən fəaliyyət növlərini xarakterizə edən söz birləşmələri yazılıbdır. Tələbələrdən biri pantomima şəklində onu göstərir, digər tələbələr isə onu tapmağa çalışır.

6. “Otaq döyüşü”. İki tələbə hər biri öz otaqlarının planını və boş kvatrat şəkli çəkir. Tələbələr bir-birinin planını görməməlidir. Daha sonra bir-birindən mebellərin harada olduğunu növbə ilə soruşurlar. Düzgün cavab verən tələbə öz kvadratında həmin mebelin sxemin çəkir. Yanlış cavab verən isə sual vermək hüququnu itirir və növbə birinci tələbəyə keçir. Daha çox suala cavab verən tələbə qalib olur.

7. “Müsahibə”. Öz dostlarınızla söhbət edin və aydınlaşdırın:

a) onlar 26 dekabrda nə ediblər;

b) keçən həftə baş verən maraqlı bir hadisəni nəql etsinlər;

c) bu həftə onlar idmanla məşğul olublarmı;

Qrammatik qaydaların kommunikativyönlü tapşırıqlar vasitəsilə öyrədilməsi tələbələrdə maraq oyadır və onlar bu cür tapşırıqların icra edilməsinə həvəslə cəlb olunurlar. Tapşırığın maraqlı olması, hər-hansı ciddi problemin müzakirəsi və ya rol-oyun tələbənin daxili motivasiyasını yaradır.

Kommunikativyönlü tapşırıqların istifadəsi nəticəsində onlar qrammatik materialların praktiki fəaliyyət yollarını öyrənirlər və suallar soruşmaq, hekayələr, düşüncələrini ifadə etmək, ideyaları ifadə etmək şəklində danışmağa inteqrasiya edirlər. Bu texnika təhsil problemlərinin həllinə böyük töhfə verir. Təcrübə göstərir ki, kommunikativ texnologiyadan istifadə etməklə qrammatikanın öyrənilməsi erkən mərhələdə istifadə edilə bilər və danışma, oxu, dinləmə və yazma materialları üzərində işləyir. Qrammatikanın kommunikasiyaya yönəldilməsi motivasiyanı artırmağa, sözün ifadəli imkanlarını genişləndirməyə imkan verir və öyrənmə mühitində tələbələrin ifadələrinə təbiilik verir.

Kommunikativyönlü təlimdə hərəkət xarakterli kommunikativ çalışmalardan istifadə edilir. Bu çalışmalar da öz növbəsində iki böyük qrupa bölünür:

1) funksional-kommunikativ; 2) qrup əlaqələri;

1) Funksional-kommunikativ tapşırıqlara şəkillər və şəkillər kompleksini müqayisə etmək, bir sıra fotoşəkillər və ya mətn fraqmentləri içərisində məntiqi ardıcıllığı bərpa etmək, şəkillər və mətnlərdə əskik elementləri tapmaq, tapşırıqları uğurla yerinə yetirmək üçün tərəfdaşa dəqiq təlimat hazırlamaq, bütün məlumatları birləşdirərək bir sualın cavabını tapmaq və s. daxil edilir.

2) Qrup əlaqələri iştirakçıların sərbəst ünsiyyəti, fikir mübadiləsi, müzakirələr, rol-oyunlar, improvizasiyalar, eskizlər və s. şəklində təşkil olunur. Tələbələrin söz ehtiyatı və qrammatik bacarıqları üzərində ənənəvi iş aparıldığı təqdirdə kommunikativ tapşırıqların səmərəliliyi artmış olur. Təlimin təşkilində istinad nöqtəsi kimi təbii - nitq və təlim-nitq situasiyalarından istifadə edilir, yəni həyat şərtlərini modelləş-dirən tapşırıqlardan istifadə edilir.

Real ünsiyyət üçün şərtlərdən biri xarici dildə danışmağın zəruriliyidir. Məsələn, əcnəbiyə məktub yazmaq, öz şəhərin haqqında danışmaq, sevimli məşğuliyyət və s. barədə danışmaq təklif olunur. Əgər bunun həyata keçməsi mümkündürsə, bu, real situasiyadır; məsələn: Sabah üçün hava proqnozunu dinləmək və hava Berlində necə olacaq? deyə soruşa bilərsiniz. Mesaj radio ilə ötürülürsə, bu təbii nitq situasiyası, audio yazıdırsa, o zaman bu təlim nitq situasiyasıdır.

Ünsiyyət problemini həll etməyə kömək edən əsas vasitələrdən biri də kommunikativ oyundur. Dil formaları və onların tez-tez təkrarlanmasına yönəlmiş ənənəvi təlim çalışmalarından fərqli olaraq, kommunikativ oyunlarda iştirakçıların diqqəti bir tərəfdən məzmuna yönəldi-

lir, digər tərəfdən isə dil formalarının tez-tez təkrarlanması təmin edilir, oxu, yazı, dinləyib anlama və danışmaq kimi bacarıq və vərdişlər məşq etdirilir. Kommunikativ oyunlar yüksək səviyyədə görüntülüyə malikdir və tələbəyə dili canlı ünsiyyət vasitəsi kimi yaşamağa imkan verir. Onlar ünsiyyətə daxil olmaq, söhbət etmək, suala cavab vermək, fikirlərini ifadə etmək kimi dil formalarını təmin edir.

Bu cür kommunikativ oyunların təşkili və metodikası aşağıdakıları tələb edir:

• oyunun mahiyyətini və qaydalarını bütün qrupa (təlimat) izah etmək;

• oyunun bütün iştirakçılarını zəruri linqvistik və təlimat materialı ilə təmin etmək (tapşırıq üzrə fərdi kartları və ya lövhədə əsas ifadələr yazmaq);

Müəllim və tələbələr tərəfindən oyunun nümayişi;

• bütün qrupun qarşısında mini-qrup sınaq oyunu;

• referans materialları istifadə edərək bütün qrupun oyunu;

• materialları dəstəkləməyən bütün qrupun oyunu;

• Müəllimlə, qrupla frontal ünsiyyət, ümumi söhbət (oyundan sonra);

• iştirakçıların hərəkətlərinin təhlili.

Beləliklə, kommunikativ qrammatikanın tədrisi "süni" nümunələri və mücərrəd nitq situasiyalarını istisna edən autentik materialın istifadəsini nəzərdə tutur. Qrammatik materialı izah edərkən seçilmiş leksik ehtiyat tələbələrə məlum olmalıdır ki, tələbələrə əlavə çətinlik yaratmasın və mövzu aktual olmalıdır ki, tələbələr onu ünsiyyət prosesində istifadə etsinlər. Bundan başqa, qrammatik qaydalar forma, məzmun və funksiyanın vəhdəti kimi nəzərdən keçirilməlidir. Başqa sözlə, tələbə qrammatik strukturu "eşitməli", onu mətndə "tanımalı", yazılı və şifahi nitqdə istifadə etməyi bacarmalıdır.

**Problemin aktuallığı.** Məqalə ingilis dilinin qrammatikasının kommunikativ metodla tədrisi zamanı istifadə edilən müasir və aktual linqvodidaktik vasitələrin tədqiqinə həsr edilmişdir.

**Problemin elmi yeniliyi.** Məqalədə ilk dəfə olaraq ingilis dilinin qrammatikasının kommunikativ metodla tədrisi zamanı istifadə edilən müasir linqvodidaktik vasitələr nəzəri baxımdan araşdırılır və bu da işin elmi yeniliyini təşkil edir və məqalədən metodikaya dair nəzəri fənlərin tədrisində istifadə edilməsi məqsədəuyğundur.

**Problemin praktik yeniliyi.** Məqalədən müəllim və tələbələr praktik cəhətdən (kommunikativ və praktik qrammatika və eləcə də metodika fənlərinin tədrisində) də yararlana bilər.

**Ədəbiyyat:**

1. Гальскова Н.Д. Гез Н.И. Теория обучения иностранным языкам, Лингводидактика и методика, М: ACADEMA, 2006.

2. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам, М: АРКТИ, 2003.

3. Пальмер Г. Устный метод обучения иностранным языкам. М.: Просвещение, 1960.

4. Пассов Е.И. Коммуникативный метод обучения иноязычному говорению. М.: Просвещение, 1991.

5. Соловова Е.Н. Методика обучения иностранным языкам, Базовый курс лекций, М.: Просвещение, 2015.

6. Halliday M.A.K. Halliday's Introduction to the Functional Grammar/ Michael Toolan, University of Birmingham UK, London and New York: Routlage, 2014.

7. http://rirorzn.ru/publication/dopolnitelnoe-obrazovanie/kommunikativnyy-metod-v-obuchenii-inostrannomu-yazyku/

8. http://docplayer.ru/35303950-T-s-matveeva-kommunikativnyy-metod-obuche niyainostrannym-yazykam.html

9. http://xn--i1abbnckbmcl9fb.xn--p1ai/%D1%81%D1%82%D0%B0%D1%82% D1%8C%D0%B8/-608831/

**E-mail:**gunay@mail.ru
**Rəyçi:** *ped.ü.fəls.dok., dos.* F.Ə. Rzayeva
**Redaksiyaya daxil olub:** 26.11.2018